# Dünya mədəniyyəti inkişafına böyük töhfə

## Sergey Raxmaninovun əsərlərindən ibarət konsert

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən və Azərbaycanın milli musiqi mədəniyyəti tarixində yeni bir ənənənin təməli sayılan, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsində, zəngin musiqi mədəniyyətimizin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayan V Qəbələ Beynəlxalq Musiqi Festivalı uğurla davam edir.



AzərTAc xəbər verir ki, iyulun 29-da festivalın proqramına uyğun olaraq "Qafqaz Resort" hotelində təqdim edilən növbəti kamera musiqisi axşamı görkəmli rus bəstəkarı Sergey Raxmaninovun xatirəsinə ithaf olunmuşdur.

Kamera musiqisi axşamında müxtəlif nüfuzlu festivalların iştirakçısı və beynəlxalq müsabiqələr laureatları, pianoçular- Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti Elnarə Keberlinskaya, Səidə Tağızadə, həmçinin Azərbaycan Dövlət simli kvartetinin üzvü, əməkdar artist Aleksey Miltıx (violonçel), tanınmış opera müğənnisi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, əməkdar artist Gülnaz İsmayılova tamaşaçılara görkəmli rus bəstəkarı Sergey Raxmaninovun əsərlərini təqdim etmişlər. Onlar gözəl çıxışları ilə dinləyicilərin qəlbinə yol tapmışlar.

Tanınmış rusiyalı pianoçu Oksana Yablonskayanın ifası isə tamaşaçılara unudulmaz anlar bəxş etmişdir.

# Festivalla bağlı görkəmli musiqi xadimlərinin rəy və mülahizələri

***Hər gün, hər bir konsert öncəsi çox məşhur və görkəmli musiqi xadimləri V Qəbələ Musiqi festivalı barədə bir çox xarici ölkə və yerli mediya əməkdaşlarına müsahibələr verir, rəy və mülahizələrini bildirirlər. Aşağıda bu rəy və mülahizələrin bəzilərini ixtisarla Qəbələ oxucularına təqdim edirik.***

## Con Bernard Pommier: Sehrli ölkədə, gözəl məkanda yenidən olduğum üçün çox şadam



Sehrli ölkədə, gözəl məkanda yenidən olduğum üçün çox şadam.

Bu sözləri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən V Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı, "Northern Simfonia" konsert salonunun bədii rəhbəri, Torino Filarmoniyasının baş dirijoru, fransalı Con Bernard Pommier demişdir.

Tanınmış dirijor belə bir gözəl təşəbbüsü irəli sürənlərə, festivalın təşkilatçılarına minnətdarlığını bildirərək demişdir: "Burada yenidən olmaqdan çox məmnunam. Dostlarla yenidən görüşmək, onlarla birlikdə olmaq insana xüsusi zövq verir. Biz artıq bir musiqiçilər ailəsiyik. Bu, məni, sözün həqiqi mənasında, xoşbəxt edir. Mən Qəbələyə həyat yoldaşımla gəlmişəm. Həyat yoldaşım Olqa Martinova festival günlərində Dmitri Yablonski ilə eyni səhnəni bölüşəcəkdir. Qəbələ qeyri-adi və gözəl məkandır. Yerusəlim Simfonik Orkestri ilə çıxış etmək mənim üçün çox sevindirici haldır. Qəbələnin təbiəti möhtəşəmdir. Bu gün şəhərə, şəhər ətrafında gəzintiyə çıxdım. İnsanların mehribanlığı və qonaqpərvərliyi məni heyran etdi".

## Mirko Roverelli: Bu ecazkar diyarda Şərq mədəniyyəti ilə bağlı olan hər şey məndə maraq doğurur



Bu sözləri məşhur italiyalı dirijor Mirko Roverelli demişdir. Beynəlxalq musiqi festivalının gözəl bir məkanda—dağlar, meşələr arasında, görkəmli ifaçıların iştirakı ilə keçirilməsi mənim üçün böyük tapıntıdır. Çoxdandır ki, Azərbaycana gəlmək arzusunda idim. Qəbələ festivalında iştirakım ölkənizi yaxından tanımağıma da gözəl imkan yaratdı. Növbəti illərdə də böyük məmnuniyyətlə bu möhtəşəm festivala qatılmaq istərdim.

## Burçin SAVIGNE: Dünyada getdikcə məşhurlaşan Qəbələ festivalında bir daha Azərbaycan musiqisinin ecazkarlığının, xalqınızın yüksək qonaqpərvərliyinin şahidi oldum

"Dünyada getdikcə məşhurlaşan Qəbələ festivalında bir daha Azərbaycan musiqisinin ecazkarlığının, xalqınızın yüksək qonaqpərvərliyinin şahidi oldum".

Bu sözləri jurnalistlərə V Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı, İstanbul Milli Opera Teatrının solisti Burçin Savigne müsahibəsində demişdir.

Türkiyəli ifaçı burada dağların, gözəl təbiətin insana ayrı bir həyəcan verdiyini, bu gözəl diyarın klassik musiqi səsləndirmək üçün ideal məkan olduğunu bildirərək demişdir: "Çıxışımı uğurla başa vurdum və ən böyük qazancım musiqisevərlərin alqışları oldu.



Azərbaycan bəstəkarları, musiqi əsərləri barədə təəssüratım az idi. Buradakı çıxışım bir yenilik oldu. Şübhə etmirəm ki, bir müddət sonra dünya ictimaiyyəti Qəbələ Festivalının uğurlarından danışacaqdır".

Burçin Savigne bu beynəlxalq tədbirin əhəmiyyətini yüksək qiymətləndirmiş, füsunkar təbiətin, uca dağların və yaşıl meşələrin əhatəsində, təmiz havada belə gözəl musiqi bayramının keçirilməsini yerli və xarici qonaqlara unudulmaz anlar yaşatdığını xüsusi vurğulamışdır.

## Janna Qandelman: Əyalətdə klassik musiqiyə bu qədər insanın maraq göstərməsinə heyran qalmışam



Qəbələdə olmasından məmnunluğunu ifadə edən Yerusəlim Simfonik Orkestrinin üzvü, konsertmeyster Janna Qandelman festivalda dünya şöhrətli musiqiçilərin bir araya gəlmələrini mühüm hadisə kimi qiymətləndirmiş və demişdir: "Qəbələdə təşkil olunan bu festivalda iştirak etmək mənim üçün çox xoşdur. Klassik musiqinin incəlikləri buradakı təbii gözəlliklərlə bir-birini tamamlayır. Festival çox yüksək səviyyədə təşkil olunmuşdur. İlk dəfə gəldiyim Qəbələyə heyran qaldım. Bildiyimə görə, festival ənənəvi olaraq hər yay keçirilir. Növbəti illərdə də gəlib bu dağlara, bu əsrarəngiz təbiətə və gözəl musiqi axşamına qonaq olmaq istərdim. Auditoriya musiqiçiləri çox isti və açıq qəlblə qarşılayır. Bu günlərdə dünya şöhrətli musiqiçilər ifaları ilə bu təntənəli mərasimə xüsusi ovqat gətirirlər".